**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

№ 053/459

**Bakı şəhəri** "01" sentyabr **2025-ci il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022–2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Bolqarıstan Respublikasının Pazarcik (Pazardzhik), Haskovo (Haskovo), Veliko-Tarnovo (Veliko-Tarnovo), Dobriç (Dobrich), Kırcali (Kardzhali) vilayətlərində **yüksək patogen quş qripi** xəstəliyi, Avstriya Respublikasının ərazisində isə qeydə alınmış **iribuynuzlu heyvanların infeksion rinotraxeit** xəstəliyi aradan qaldırılıb.

Belə ki, Bolqarıstan Respublikasının yuxarıda göstərilən inzibati ərazi vahidlərində və Avstriya Respublikasının ərazisində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə Bolqarıstan Respublikasının sadalanan inzibati ərazi vahidlərinə, o cümlədən Avstriya Respublikasının ərazisinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

1. ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.** 2021-ci il 6 dekabr tarixli 073/168 nömrəli qərarla Bolqarıstan Respublikasının Pazarcik vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 5 yanvar tarixli 001/176 nömrəli qərarla Bolqarıstan Respublikasının Haskovo vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2023-cü il 10 aprel tarixli 015/266 nömrəli qərarla Bolqarıstan Respublikasının Veliko-Tarnovo vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2023-cü il 29 noyabr tarixli 058/309 nömrəli qərarla Bolqarıstan Respublikasının Dobriç vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2024-cü il 18 aprel tarixli 027/347 nömrəli qərarla Bolqarıstan Respublikasının Kırcali vilayətinə tətbiq edilmiş məhdudiyyət.

ƏSLİ İLƏ DÜZDÜR

01.09.2025

**İribuynuzlu heyvanların infeksion rinotraxeit xəstəliyi üzrə:**

**1.6.** 2022-ci il 16 iyun tarixli 039/214 nömrəli qərarla Avstriya Respublikasının ərazisinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** Qalib Əbdüləliyev

ƏSLİ İLƏ DÜZDÜR

01.09.2025